

■ Tuğrul Tanyol

### ÇƏRŞƏNBƏ AXŞAMI

Siz heç belə bir göy üzü gördünüzmü?
Mən görməmişdim...
Sarı yağışlar ələnir küçələrə,
axır torpağa sarı.
Bir çərşənbə axşamı damcılayır asta-asta,
balkondakı qəfəsdən.
Siz heç belə bir gün gördünüzmü?

Çay içirəm
gümüş bir stəkanda.
İçim isinir sevgiylə,
Göy üzündə ağır qanadlı buludlar
Və tənha uçan bir quş var....

Belə bir gündə tək-tənha
Kristal səssizliyiylə
Keçir zaman,
Siz heç zamanı gördünüzmü?

Siqaretimin dumanı halqa-halqa,
Qələmim kölgə olmuş əlimdə.
Başım üstündəki işıq yanır-sönür hərdən,
Belə bir aydınlıq gördünüzmü?

Otağın səssizliyində uzanıb
alatoranlığı gözləyirəm.
Gözləmədiyim hadisələr olur bu gün.
Həm fərqli,
həm də eyni,
göy üzünü izləyirəm...

Beləcə, yağışa bulanmış,
küləkdə titrəyən bir çərşənbə axşamı...
Siz heç belə bir gün (axşam) gördünüzmü?

### SU QƏSİDƏSİ

Suya baxmağın öz yorğunluğu var doğrusu...
Çünki gözlərinə hopar su.

Sudan bir şala bürünərsən,
Sudan gəmilər keçər, - üzü açıq.
(Suda gəmilər üzər, - üzü açıq.)

Bu sudurmu, damcı damcıya qarışır.
Çay bir damcı zənciri deyilmi?

Suya baxmağın öz yorğunluğu var,
Dalğın dalğalar dərinliyə baş vurar.

Suyu cızan əlimiz bir ülgücdür bəzən
Çayı kəsib qollara ayırar.

Suyla qovuşmaq kimidir, uzun ayrılıqlardan sonra
Körfəz qucağını həsrətlə açar ona.

Suya baxmağın yorğunluğu hopunca gözlərinə
Yağış yağar, döyər qapını inadlı damlalar.

Və Tuğrulun fincanındakı su
Çay olduğu günlərçün darıxar, darıxar...

### YALVARIŞ

Gün ağacın içinə doğdu,
Çılpaq budaqları işıqla doldu,
sən də mənim içimə düşdün,
məndəki söz doğuldu...

Ağacdakı işıq əgər
anlada bilmirsə günü,
Mən necə anlada bilim,
sənin gözəlliyini?

Səni düşünmədiyim hər an
Sönən şamlarla dolu
bir otaqda gəzmək kimidir.
İşığı unutmaq,
gecəyə dözmək kimidir.

Gəl!
Kor olmaqdan qurtar məni.

### GÖZƏLLİYİN

Yolum bir masada sona çatır,
Gözəlliyin
təzə dərilmiş çiçəklər kimi
durur orada...

Bütün ömrümü bu masada
keçirə bilərəm demişdim özüm...
Sonra sən əlimdən tutdun
mən böyüdüm
dərin yuxuda,
yuxunun əksi kimiydi üzün.

Dənizin duzu qayaları oyarkən,
Qayanın çiçəkləri dənizdən, duzdan doyarkən,
Zamanın bədəndə açdığı hər sətir
Bir yol olaraq yenə o masada sona çatır...

Mən o vaxt anladım nəymiş,
Solğun çiçəklər içində
sənin sadə gözəlliyin: mənə
Tanrının verdiyi
Bir göz qırpma anı imiş...

### FEVRAL

Bir az əvvəlki gurultu
Səssizliyin sınıq səsidir.
İpəyə sürtülən əl belə
Onu incidə bilər...

Qulaq ver! Uzaq ulduzların pıçıltısıdı bu,
Bir rüzgar, göyərçinin
qanadındakı uğultu,
Qaranlığın qayasından
axarkən sürüşən su
Ametist daşını çatladar sərxoşluğuyla...

Yenə fevraldı, heyhat!
Axıb gedir hər şey unutmağa doğru.
Çünki həyat
unudulmuş nələrinsə ölçüsünə uyğunlaşır.

Mən unutma sənətini
öz üzərimdə öyrəndim, doğrudur...
Heç kim yox idi, suyu öpdüm,
Tənhalığım ağrıdı.

### TƏNHALIĞIMDA

Avaz-avaz,
Qışqır...
Söz...
Quyuya düşərsə, çıxmaz...

Küçədən küçəyə
Sovrulan yarpaq,
Küləyi aparar
köçdüyü yerə...

Qulaq ilk eşitdiyi səsi axtarar,
Vücud ilk toxunuşu...
Ovuclarımda bir göz şəkli var,
Nəzərləri
mənə dikilir
tənha olanda.

### ANAMIN XƏSTƏLİYİ

Ölüm -
deyirdi atam o vaxt -
Bir tənhalıq kimi
insana qovuşur.
Anamın susqunluğu,
başının üstündə
Motsartdan bir ariya.
Yeni doğulmuş göyərçin uça bilmədiyi kimi,
Çırpınıb ürkəkcə qonmuş çarpayıya.
Ürpənir gözündə anamın yuxusu,
Yəni necə izah edim -
Bu yaşımda qəlbimdəki
yetim qalmaq qorxusunu?

### ANAMI ƏN SON GÖRDÜYÜM AN

*həsrətlə*

Son dəfə nə zaman görmüşdün ananı,
Əlini son dəfə nə zaman tutmuşdun,
Son dəfə nə zaman öpmüşdün onu?

Nəydi sənə söylədiyi ən son söz,
ən son nə zaman çağırıb adını,
o səsi heç unuda bilərsənmi?
Son dəfə nə vaxt olub
Onu sevgiylə qucaqlamağın?
O zəif bədəni bərk-bərk basıb bağrına,
Bir az daha yaşasın deyə bağırmağın...

Ən son, ən son, ən son
ananın ana,
sənin hələ də övlad olduğun
o son gündə
nə düşünmüşdün
uzun-uzadı?

Hansıydı son dəfə dinlədiyin musiqi,
Onu son dəfə görməzdən öncə,
Oxuduğun ən son şeir,
Baxdığın son şəkil?
O şəklə baxa-baxa keçdi günlər bir-bir...

Qatarlar, taksilər, avtobuslar, təyyarələr,
Həyat sürətlə keçərkən aradan,
Ananı yavaşca məzara qoymağın.

Torpağın torpağa tökülməyi,
Suyun həsrətlə axmağı o yağışlı gündə,
Dodaqlarda və qəlbdə səslənərkən son fatihə,
Və sonra hamının çəkilib getməyi...

Bilirsən,
Az olubmu qoyub getmisən ananı,
sadəcə bir "salamaq qal"la.
Bilirsən,
Aylarca görməsən də,
O, oradadır,
O sevgi məsafələrdən və zamandan asılı deyil ki!

Ən son nə zaman görmüşdün ananı,
ondan ayrılarkən
nə demişdin?

### ANALARIN GƏNC QALDIĞI YER

Bütün ağlayanların kiriməsi lazımdır bir şeiri yazmaq üçün,
Çünki duyğuların dincəldiyi yerdə başlayar şeir -
Sevginin üşüdüyü yerdə, Uşaqlığın qurtardığı
və anaların həmişə gənc qaldığı yerdə, bir də.

Nəfəslikli o qədim evimizin
İndi əsrlər öncədən
aralı qalmış qapısında, yığılan qarların
Donmuş istiliyi bu, astaca ürəyimə çökən.

Ana, bax, mən həmin uşağam - yüklərin üstündə,
Sənin nəğmənlə ürpənərdi o kiçik bədənim...
Bayırda qarların böyük heykəllərlə vuruşmağında,
Şəffaf pəncərələrə qonan zərif qar dənəsində
Qaları canım (ya da düşüncələrim).

Sənə baxardım, otağın hansısa küncündən
Bir şəkil asılıb gözlərimə, bəlkə həqiqətdi...
Sən ən gözəl anların şəklini çəkərdin,
Dodaqlarında titrəyən səssizliyi o qədim nəğmələrin.

İndi görünməz pəncərələrini ovuram tozlu xatirələrimin,
Çöldəyəm, qar yağır ana, üşüyürəm,
İçəri apar məni, qucaqla, isit bədənimi,
O köhnə otaqda, yüklərin təpəsindən düşür, düşürəm.

Bütün ağlayanların kiriməsi lazım bir şeiri yazmaq üçün.
Çünki duyğuların dincəldiyi yerdə başlayar şeir -
Sevginin üşüdüyü yerdə, uşaqlığın qurtardığı
və anaların həmişə gənc qaldığı yerdə, bir də...

### GÖZƏL GÜNLƏR HARADADI?

Yanaqlarında sevincin rəngi,
Yaşıla çalan gözlərinlə
"gül" demişdin,
ya da "bənövşə".
İndi unutmuş ola bilərəm,
Gözəl günlər yada düşür...

Biz onu gələcəkdə
gözləmişdik,
Şərqə doğru baxan gözlərimizlə...
Sonra günəşin hər qürubu
"bəlkə, sabah, bəlkə sabah"
Dedirtdi bizə sözlərimizlə.

Gözəl günlər həmişə buradaydı,
əlimizin altında - ürəkdə,
Gülüşündə balamızın,
sənə hər toxunuşumda,
mənə hər toxunuşunda,
Dənizə hər baxışımızda,
içdiyimiz suda, yediyimiz çörəkdə...

Biz onu tuta bilmədikmi,
candan əziz?
Deməzdim,
Çünki yaşadıq biz...

**Türkiyə türkcəsindən uyğunlaşdıran: Həyat ŞAMİ**